**Düz 35 il əvvəl, fevral ayının sonunda Sumqayıtda baş verən hadisələr aydın səmada şimşək kimi çaxdı. Ondan bir neçə gün əvvəl isə Xankəndidə qondarma "Artsax" iddiası ilə keçirilən ilk mitinq xain qonşuları Azərbaycana qarşı ərazi iddialarına "səfərbər" etmişdi. Separatçı "Krunk" təşkilatı üzə çıxmışdı. "Miatsum" ("Birlik") harayları başlanmışdı. Beləliklə, ermənilərin qondarma "Qarabağ hərəkatı"nın vacib bir halqası da Sumqayıt hadisələri olmuşdu. Qanlı aksiyalarda neçə-neçə insan qətlə yetirilmiş, talanların hesabı bilinməmişdi.**

# Sumqayıt hadisələri – ifşa edilmiş erməni məkri

Bəli, məhz Sumqayıt hadisələrindən sonra ermənilərin Qarabağ iddiaları gücləndi. Onlar "fəaliyyətlərinə" legitimlik donu geyindirməyə başladılar. "Paşa" ləqəbli Eduard Qriqoryanın başıpozuq dəstəsinin əli ilə şəhərdə iğtişaşlar törətdilər. Sumqayıtda, Bakıda və digər şəhərlərimizdə gen-bol yaşayan erməni həmsoylarının da, necə deyərlər, isti aşına soyuq su qataraq onları çöllərə saldılar.

Əlbəttə, 35 il əvvəlki Sumqayıt hadisələri haqqında çox yazılıb. Təkrarçılıq olmasın deyə, mən bir sumqayıtlı kimi, əsasən öz gördüyüm epizodları və araşdırmalar nəticəsində gəldiyim qənaətləri oxucuların diqqətinə çatdırmaq istəyirəm.

...27 fevral 1988-ci il. Bazar ətrafında meşin gödəkçəli gəlmə şəxslər ətrafa toplaşanlara Ermənistandan qaçıb canlarını qurtardıqlarını söyləyir, Pəmbək (Quqark), Gümrü (Leninakan) və Böyük Qarakilsədə (Kirovakan) millətimizə qarşı kütləvi qırğın törədildiyindən "yana-yana" danışır, nifrət və qisas hissi yaradırdılar. Nə biləydik ki, onlar planlaşdırılan hadisələrin təşviqatçılarıdır?

Axşam ailəlikcə Sumqayıtın 9-cu mikrorayonuna, dayımgilə qonaq getmişdik. Qayıdanbaş yüz nəfərə qədər gəncin "Ermənilərə ölüm!" şüarları ilə şəhərdə qarışıqlıq saldığını, yolları bağladığını gördük. Onlar bizi ötürən dayım oğlunun təzə "Jiquli" markalı minik avtomobilini də daşa basdılar. Aləm bir-birinə dəydi. Birtəhər evə çatdıq. Ertəsi gün qarışıqlıq, talan daha geniş miqyas aldı.

...28 fevral 1988-ci il. Şaxta qılınc kimi kəssə də, küçə və meydanlarda "hərarət" kəlləçarxa çıxmışdı. Hadisələrin önündə iki dəfə cinayət törətdiyinə görə məhkum olunmuş "Paşa" gedirdi. Axşamüstü "sehirli qüvvələr" Leninin abidəsi önündə mitinq təşkil etdilər. Mən də gənc jurnalist kimi, olayları müşahidə etmək, baş verənlərdən nəsə anlamaq üçün oraya getdim. Natiqlər "qan-qan" deyirdilər. Əsas hədəf itaətsizliyi genişləndirmək idi. Ermənistanda divan tutulmuş azərbaycanlıların qisasını almaq üçün buradakı erməniləri öldürməyə çağırırdılar. Hüquq-mühafizə orqanları sanki iflic olmuşdu. Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi Cahangir Müslümzadə təhrikçiləri dilə tutmaq istəsə də, alınmadı. Qızışmış kütlə evlərə, müəyyən ünvanlara hücum çəkdi. (Sən demə, həmin ünvanlarda "Krunk" üçün ianə verməyən ermənilər yaşayırmış).

Şəhərin 2-ci mikrorayonundakı bir binanın 5-ci mərtəbəsindən yaşlı bir ermənini aşağı atdılar. 45-ci məhəllədə erməni dərzi qadını anadangəlmə soyundurub küçəyə çıxardılar. Çəpik çala-çala "Heyvagülü" oynamağa məcbur etdilər. Bu səhnəyə baxa bilməyib oradan uzaqlaşdım. Sonra eşitdim ki, "Paşa"nın qoçuları onu öldürüb yaxınlıqdakı xəstəxananın hasarları arasına atıblar.



...29 fevral 1988-ci il. "Paşa"nın erməni olduğunu və xüsusi tapşırıq üzrə hərəkət etdiyini çoxları bilmirdi. O, əsasən talançılığa meyilli kriminal ünsürlərlə "işləyirdi". Əlbəttə, sadəlövhlükdən onlara qoşulan səbatsız gənclər də vardı. "Paşa"nın dəstəsi evləri qarət edir, erməni sakinlərə divan tuturdu. Edik özü qanlı aksiyalarda "nümunə" göstərirdi: şəxsən bir neçə ermənini öldürdü, bir neçə "bacı"sını zorladı. Beli bağlı olduğuna görə heç nədən çəkinmirdi.

Həmin vaxt şəhərin küçələrinə milis işçilərindən və sovet ordusu əsgərlərindən ibarət "kordon"lar düzülsə də, onların hamısı adi müşahidəçi rolunu oynayırdı. "Sülh" küçəsi boyunca rus zirehli transportyorları o baş-bu başa şütüyürdü. Gözü qızmış kütlənin arasından yola çıxaraq həmin "BTR"lərə benzin dolu şüşə qablar atan bir neçə nəfərin hərbi maşınların altında necə qaldığının şahidi oldum.

İş-işdən keçəndən sonra Sumqayıtda fövqəladə vəziyyət elan edildi və komendant saatı tətbiq olundu. Məlumat verildi ki, ümumiyyətlə, həmin günlərdə şəhərdə 26-sı erməni olmaqla 32 nəfər sakin həyatını itirib. Çoxsaylı maşın yandırılıb, mağazalar, mənzillər talan edilib. İğtişaşların təşkilatçıları quldur dəstəsini əvvəlcədən Boruyayma zavodunda erməni ustaların hazırladığı şiş uclu dəmir parçaları ilə "silahlandırıb", spirtli içki və narkotiklərlə yetərincə təmin ediblərmiş...

Hüquq-mühafizə orqanlarının arxiv materiallarından məlum olur ki, "Paşa" 1988-ci ilin əvvəllərində Xankəndidə bir müddət sonra Ermənistanın prezidenti olacaq Serj Sərkisyanla, "Daşnaksütyun"un maliyyə dəstəyi, katolikos I Vazgenin xeyir-dua verdiyi "Krunk"un fəalları Manuçarov və Dədəmyanla görüşübmüş. Vəzifə yiyəsi olan qatı separatçıların Sumqayıtdan gələn tüfeyli, kriminal Ediklə nə işi ola bilərdi? Təbii ki, "uzaqgörən" plana görə, Qarabağın ilhaqı məsələsində Sumqayıt kartından istifadə etmək üçün Azərbaycan dilini təmiz bilən cinayətkarı təlimatlandırırmışlar. O da tapşırıq alandan sonra qayıdıb Sumqayıtda aranı qatdı ki, ermənilərə zülm edildiyi və iki millətin bir arada yaşamasının mümkünsüzlüyü aləmə car çəkilsin.

Serj Sərkisyanın əlinin Xocalı soyqırımında da günahsız insanların qanına batdığı məlumdur. Elə bu faktın özü onun peşəkar terrorçu olduğunu deməyə əsas verir. Sarkisyanın əli Sumqayıtda ermənilərin qanına bulaşmasa da, onun həmin hadisələrin təşkilatçılarından biri olduğu şübhəsizdir. Onu da deyək ki, sonrakı illərdə "Krunk"un ideoloji bölməsinin rəhbəri Xankəndi ipək fabrikinin o vaxtkı partkomu, Xocalı qatili, sonradan Ermənistanın prezidenti olmuş Robert Köçaryan idi…

O zaman biz sovet xalqının sadəlövh nümayəndələri idik və hələ də inanırdıq ki, ölkədə haqq-ədalət var, kimsə monolit "xalqlar dostluğu"nu sarsıtmağa cürət etməz. Amma Moskvadakı müzakirələrdə Mixail Qorbaçovun ermənilərə loyal münasibət göstərməsi, hadisələrin milli zəmində baş vermədiyi fikrini ortaya atması bunun planlaşdırılmış təxribat olduğuna dəlalət etdi. Ardınca böhtan xarakterli təbliğat maşını işə salındı. Erməni millətçiləri dünya ictimaiyyətinə azərbaycanlıları başkəsən şovinistlər kimi qələmə verməyə başladılar.







Ermənilərin Sumqayıtla bağlı yalan və iftiraları, gec də olsa, ifşa edildi. Hadisələrdə əsl günahkarların kim olduğu aşkar faktlarla, elə erməni zərərçəkənlərin məhkəmədə verdikləri ifadələr əsasında məlum oldu. Mejlumyan soyadlı qız məhkəmədə məhz Ediki göstərərək demişdi ki, ona fiziki və cinsi zor tətbiq edən bu qeyrət dağarcığı olub.

Hadisələrdən sonra Sumqayıtda Z.Ağababyan, E.Misesov, N.Qriqoryan, K.Tamrazyan, D.Ağadjanyan, D.Ambartsumyan həbs edilmişdilər. Bu haqda SSRİ Daxili işlər naziri Vlasova teleqram vurulmuşdu. Nazir Rusiyanın ayrı-ayrı bölgələrindən erməni millətindən olan bir neçə nəfəri təcili Sumqayıta ezam etdirərək istintaq materiallarının azərbaycanlı müstəntiqlərin əlindən alınıb erməni "həmkarlarına" verilməsinə nail olmuşdu. Bir neçə gündən sonra isə SSRİ DTK-sı əməkdaşlarının göstərişi ilə istintaq işinə xitam verilmiş, cinayətkarlar azad olunaraq Sumqayıtdan çıxarılmışdılar.

Sumqayıt hadisələrinə görə onlarca gənc uzunmüddətli həbsə atıldı. Bir nəfərə güllələnmə cəzası verildi. Həbsxana divarları arasında həyatını itirənlər də oldu. Əsas "oyunçu" Eduard Qriqoryan isə həbs edilsə də, bir qədər sonra "xidmət"ləri nəzərə alınaraq azadlığa buraxıldı. Hazırda onun Moskva ətrafında şad-xürrəm yaşadığı bildirilir.

Vaxtaşırı "Sumqayıt kartı"ndan istifadə edən ermənilər hələ də anlamırlar ki, Qorbaçov Qərbin SSRİ-ni dağıtmaq planının baş icraçısı idi və onları da separatizmə həmin prosesin tezliklə baş tutması xatirinə həvəsləndirmişdi. Nəticədə sovet imperiyası çökdü, Qorbaçov Nobel mükafatı aldı, Qarabağ isə ermənilər üçün boş şirnikləndirmə vasitəsi olaraq qaldı. Bu gün artıq "DQMV" və "Artsax" yoxdur, hay-küyçü haylar İrəvanda belə, pis günə düşüblər, Ermənistan dövlətinin etibarlı sabahına ümidlər qalmayıb.

Bu da "Qarabağ hərəkatı", "Miatsum", "Sumqayıt hadisələri" adları altında başlanan oyunbazlığın sonu.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***